# “Şəhidlərimizi tanıyaq və tanıtdıraq!”



## Şəhid mayor Aqşin İbadovun xatirəsi anılıb

*Aqşin İbadov*

**Dilə gəldi telli sazım,**
**Deyir yenə şeir yazım.**
**Nədən deyim, nədən yazım,**
**Bu gün yenə Vətən yazım!**

**Yazım yenə olanları,**
**Yarpaq kimi solanları.**
**Yazan əlim quruması,**
**Qurusa da dil dodağım.**

**Zaman gələr, hesab dönər,**
**Namərd əldə çıraq sönər.**
**Silahlansa igidlərim,**
**Düşmən qorxub geri dönər.**

**Azərbaycan xalqı tarixinin Zəfər günlərini yaşayır. Ölkə başçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuzun uğurlu əks-hücum əməliyyatları sayəsində XXI əsrin ən böyük qələbəsinə imza atıldı. Torpaqlarımız düşmən tapdağından azad olundu. Azərbaycan xalqının birliyi Qarabağ zəfərinə aparan yolda əsas amillərdən biri oldu. Bu qələbə 27 illik bir zaman kəsiyində qəlblərdə yaşanan həsrətə, nisgilə son qoydu. Bu dövrdə ön cəbhədə döyüşən təhsil işçiləri ilə yanaşı arxa cəbhədə də müəllimlərimiz Müzəffər Ordumuza dəstək olmağa, onları ruhlandırmağa çalışdı. Ümumtəhsil müəssisələrində “Əsgərə məktub”, “Şəhidlərimizi tanıyaq və tanıtdıraq!” adlı onlayn layihələr həyata keçirildi.**

“Şəhidlərimizi tanıyaq və tanıtdıraq!” silsiləsindən növbəti tədbirlərdən biri də Bakıdakı 20 nömrəli tam orta məktəbin müəllim kollektivi və şagirdlərin iştirakı ilə keçirildi.

Tədbirdən əvvəl məktəbin IX m sinif şagirdləri və sinif rəhbəri Sevda Heydərova şəhid, xüsusi təyinatlı mayor Aqşin İbadovun tanınması ilə bağlı axtarışlara başlayıb. Şəhid Aqşin İbadov haqqında, onun döyüş yolu barədə məlumatlar toplanılıb, ailə üzvləri, yaxınları ilə əlaqə saxlanılıb. İgid döyüşçünün xatirəsinə həsr olunmuş tədbirdə məktəbin direktoru Esmira Ağayeva qeyd edib ki, ürəyi Vətən eşqi ilə döyünən igid oğullarımız 27 il işğal altında olan torpaqlarımızı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında düşməndən azad etdilər. Bu döyüşdə igid oğullarımız qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə yüksəldilər. Biz onların hər biri ilə qürur duyuruq. Şəhid valideynlərinə, yaxınlarına Allahdan səbr, yaralı qazilərimizə şəfa diləyirik...

Daha sonra çıxış edən şəhid atası Nazim İbadov igid zabit Aqşin haqqında vüqarla danışıb:

- Bizim ailədə 4 oğlan uşağı böyümüşdü. Dördü də Azərbaycan dövlətinə, dövlətçiliyinə sadiq övladlardı. Aqşin çox istedadlı bir gənc idi. O, təhsilin bütün pillələrini əla qiymətlərlə bitirmişdi. Aqşində insanlığa nümunə olan bütün keyfiyyətlər var idi. Hər zaman özündən kiçiklərlə qayğı, özündən böyüklərlə hörmətlə davranırdı. Aqşin elmin sirlərini daha dərindən öyrənməyə can atırdı. O, Ali Hərbi Məktəbi əla qiymətlərlərlə bitirdi, hərb elmini çox sevirdi. Tarixi romanları dönə-dönə oxuyurdu. Həyatda hər kəsə yaxşılıq etməyi sevirdi. Aqşin xoş əməlləri ilə gənclərə nümunə idi. Hərb elminin incəliklərini daha dərindən öyrənmək üçün o, Türkiyəni seçdi. Çünki türk hərb elminin vurğunu idi. Aqşin “Sarıqamış əməliyyatı” haqqında çoxlu kitablar oxumuşdu. “Çanaqqala” döyüşlərinin vurğunu idi. Orada türk əsgərinin böyük hünər, rəşadət göstərməsindən dönə-dönə danışardı.

Aqşinin bir neçə dildə sərbəst danışmağı bacardığını söyləyən şəhid atası onun Vətəni çox sevdiyindən ürəkdolusu söz açdı: “Hər zaman döyüşənlərlə çiyin-çiyinə addımlayaraq ön sırada olmağı sevirdi. Döyüş əməliyyatlarının ən çətin yerlərində döyüşmüşdü. Rəşadət nümunəsi göstərmişdi. Gəncliyimiz, Azərbaycan xalqının yeniyetmə oğul və qızları Aqşinlə fəxr etməkdə haqlıdırlar. Bütün şəhidlərimizə Allah rəhmət eləsin! Yaralı qazilərimizə şəfa arzulayıram. Aqşinin hər zaman söylədiyi bir söz var idi - “Vətəni sevmək imandandır”. O çox tərbiyəli, imanlı, çox qeyrətli oğul idi. Bu tədbirin ərsəyə gəlməsində əməyi olan hər kəsə ailəmiz adından təşəkkür edirəm.

Sonra şəhidin qardaşı gizir Cəmil İbadov məktəbin müəllim-şagird kollektivinə təşəkkürünü çatdırıb:

- Gələcək nəsillərimizə bizim şəhidlərimiz, qazilərimiz haqqında dolğun məlumat çatdırırsınız. Bu döyüşlər çox ağır oldu. Buna baxmayaraq biz qələbəni əldə etdik. Ali Baş Komandanımızın rəhbərliyi altında Müzəffər Ordumuz hərbi-siyasi peşəkarlıqla bu qələbəni xalqımıza yaşatdı. Azərbaycan ərazisinin tam bütövlüyünü bərpa etdik.

Sonra çıxış edən şəhid qardaşı Emil İbadov bildirdi ki, Aqşin məndən 9 yaş kiçik olub. Onun körpəliyi, uşaqlığı, gənclik illəri gözümün qarşısında keçib. Aqşinin vətənə bağlılığı, torpağa olan istəyi onu hər zaman yaşıdlarından bir addım öndə edib. Biz onun döyüş yoldaşları ilə görüşürük, əlaqə saxlayırıq. Aqşin öz ölməzliyi ilə Azərbaycan xalqının əzizinə, Şəhidlik zirvəsinə ucaldı. Mən qardaşımla qürur duyuram.

Şəhidin ömür-gün yoldaşı Məşhəti xanım “Çox üzülürəm, həm də fəxr edirəm onunla. İnanıram və əminəm ki, qızımız Zeynəb böyüyəndə atası ilə fəxr edəcək, qürür duyacaq”, - deyə bildirdi...

*Aqşin İbadov 1984-cü il avqustun 24-də Lənkəran rayonunun Boladi kəndində anadan olub. 1990- cı ildə Boladi kəndinin 1 nömrəli tam orta məktəbinə daxil olub, həmin məktəbi əla qiymətlərlə bitirib. 2001-ci ildə Ali Hərbi Məktəbə, 2018-ci ildə isə Azərbaycan Ali Hərbi Akademiyasına daxil olub. Attaşe kursunu keçib, nümunəvi xidmətlərinə görə mayor rütbəsinə qədər yüksəlib. Dəfələrlə müxtəlif təltif və mükafatlara layiq görülüb. Təhsilini Türkiyədə davam etdirib. İstanbulda Milli Savunma Universitetində təhsil alıb, magistr dərəcəsinə yiyələnib. 2020-ci ildə vətənə qayıdıb. Sentyabrın 27-də Vətən müharibəsi başlayan kimi döyüşlərə qatılıb. Füzuli, Cəbrayıl, Zəngilan və Hadrud uğrunda gedən döyüşlərdə rəşadətlə vuruşub. 19 oktyabr 2020-ci ildə Hadrud uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olub.*

*Ruhunuz şad olsun, əziz Şəhidlərimiz. Allahdan Şəhidlərimizə rəhmət diləyir, Qazilərimizə şəfa arzulayırıq.*

**Sevda HEYDƏROVA,**
*20 nömrəli tam orta məktəbin müəllimi*